**Azərbaycan Respublikasının Mülki Məcəlləsində, "Uşaq hüquqları haqqında" və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 4 (I kitab), maddə 250, 5, maddə 323; 2002, 12, maddə 709; 2003, 8, maddə 420; 2004, 3, maddə 123, 5, maddə 318, 6, maddə 415, 10, maddə 761, 11, maddə 901; 2005, 2, maddə 61, 6, maddə 466, 8, maddələr 684, 692, 693, 11, maddə 996, 12, maddə 1085; 2006, 2, maddə 68, 3, maddə 225, 5, maddə 387, 6, maddə 478, 8, maddə 657, 12, maddə 1005; 2007, 2, maddə 80, 6, maddə 560, 8, maddə 745, 10, maddə 937, 11, maddə 1053, 12, maddələr 1215, 1219; 2008, 3, maddə 145, 6, maddə 456, 7, maddə 602, 12, maddə 1049; 2009, 2, maddə 47, 5, maddə 295, 6, maddə 404, 7, maddə 517; 2010, 2, maddə 75, 3, maddə 171, 4, maddələr 265, 266, 276; 2011, 2, maddə 71, 7, maddə 586, 8, maddə 750, 12, maddələr 1073, 1102; 2012, 1, maddə 5, 5, maddə 403, 6, maddə 498; 2013, 1, maddə 15, 6, maddə 620, 11, maddə 1280, 12, maddələr 1469, 1478; 2014, 2, maddə 96, 7, maddə 768; 2015, 3, maddə 254, 5, maddə 512, 7, maddə 814, 10, maddə 1093; 2016, 1, maddə 26, 2 (I kitab), maddələr 186, 204, 3, maddə 401, 4, maddələr 640, 646, 6, maddə 1005, 7, maddə 1248, 12, maddələr 1998, 2018; 2017, 2, maddələr 151, 153, 5, maddələr 703, 735, 6, maddə 1035, 11, maddə 1953, 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, 2, maddə 142, 4, maddə 650, 5, maddələr 845, 851, 11, maddə 2212, 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, 1, maddələr 23, 50, 5, maddələr 806, 812, 814, 6, maddələr 994, 996, 8, maddə 1369; Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1640-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 35-ci maddə üzrə:

1.1.1. 35.4-cü maddədə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və ya digər oxşar müəssisələrdə" sözləri "sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.1.2. 35.7-ci maddədə "olanların" sözləri "olan uşaqların, o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.12-ci və 118.13-cü maddələrinə uyğun olaraq övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddəti ilə yerləşdirilən uşaqların" sözləri ilə əvəz edilsin.";

1.2. 38.2-ci maddədə "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi müəssisəsinə" sözləri "sosial xidmət müəssisələrinə" sözləri ilə əvəz edilsin;

1.3. 1103-cü maddə üzrə:

1.3.1. 1103.2-ci maddədə "tərbiyə, müalicə müəssisəsində" sözləri "sosial xidmət müəssisəsində" sözləri ilə əvəz edilsin;

1.3.2. 1103.3-cü maddədə "təhsil, tərbiyə, müalicə müəssisəsinin" sözləri "sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

1.3.3. 1103.4-cü maddədə "təhsil, tərbiyə, müalicə müəssisələrinin" sözləri "sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin;

1.4. 1104.3-cü maddədə "tərbiyə, müalicə müəssisəsində" sözləri " sosial xidmət müəssisəsində" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, 8, maddə 484; 2001, 3, maddə 143, 11, maddələr 676, 687, 12, maddə 731; 2002, 5, maddə 241, 6, maddə 328; 2004, 2, maddə 57, 3, maddə 133, 7, maddə 507; 2006, 2, maddə 75; 2007, 6, maddə 560; 2008, 7, maddə 602; 2010, 2, maddə 70, 4, maddə 275; 2013, 11, maddə 1317; 2015, 5, maddə 484; 2016, 6, maddə 968; 2017, 7, maddə 1263; 2019, 1, maddə 9; Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1675-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 30-cu maddədə "yetim" sözü "valideynlərini itirmiş" sözləri ilə əvəz edilsin;

1.2. 31-ci maddə üzrə:

1.2.1. 1-ci hissədə "uşaqlara baxan müvafiq müəssisələrdə" sözləri "uşaqlar üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin;

1.2.2. 3-cü hissədə "Uşaq müəssisələrində" sözləri "Uşaqlar üçün sosial xidmət müəssisələrində" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 8, maddə 477; 2001, 11, maddə 687, 12, maddələr 731, 736; 2002, 5, maddə 241, 6, maddə 328; 2006, 2, maddə 75; 2007, 6, maddə 561, 12, maddə 1197; 2008, 7, maddə 602; 2010, 4, maddə 275; 2013, 5, maddə 477; 2016, 11, maddə 1765; 2018, 5, maddə 872, 12 (I kitab), maddə 2505; 2019, 8, maddə 1382) 1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. doqquzuncu abzasda "tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən" sözləri "uşaqlar üçün sosial xidmət müəssisələrindən" sözləri ilə əvəz edilsin;

2.2. on beşinci abzasda "əhalinin sosial müdafiəsi müəssisələri" sözləri "sosial xidmət müəssisələri" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 3 dekabr 2019-cu il
1722-VQD